Helsinki Dizayn Muzeyi

Vikipediya, azad ensiklopediya

Helsinki Dizayn Muzeyi (fin *Designmuseo*, isv. *Designmuseet*) Finlandiya paytaxtında yerləşən, həm Finlandiya həm də xarici sənaye, moda və qrafik dizayn nümunələrinin sərgiləndiyi muzeydir. Muzey Helsinkinin Korkeavurenkatu küçəsində yerləşir və Finlandiyanın Dövlət mülkiyyətinə daxildir. Bina 1873-cü ildə tikilib və 1978-ci ildən bəri muzey kimi fəaliyyətini davam etdirir. Muzey binasında dizayn işləri 1894-cü ildə memar Qustaf Nüström tərəfindən neoqotika üslubunda aparılıb. 2002-ci ildə muzey adını Designmuseo ("Dizayn Muzeyi") kimi dəyişməyinin səbəbi bir əvvəlki adının çox uzun və mürəkkəb olması idi.[4] Həmçinin muzeydə kafe və mağaza fəaliyyət göstərir. 2017-ci ildə Finlandiya Respublika günü münasibəti ilə muzey özünün yenilənmiş kolleksiyalarını qonaqların ixtiyarına vermişdir.

Muzeydə 1870-ci ildən günümüz qədər olan fin dizayn tarixi sərgilənir. Muzeydə sərgilənən nümunələrə 75.000-dən çox əşya və 100.000 rəsm əsəri daxildir. Muzeydə həmçinin beynəlxalq turizm sərgiləri, yeni nəşr edilən kitablar və sərgi kataloqlarında təşkil edilir.

Helsinki Dizayn Muzeyi

60°09′47″ şm. e. 24°56′47″ ş. u.

Ölkə	Finlandiya
Şəhər	Helsinki, Finlandiya
Yerləşir	Helsinki[1][2][...]
Tikilmə tarixi	1873
Rəsmi sayt	designmuseum.fi (http://www.designmuseum.fi/)

Vikianbarda əlaqəli mediafayllar

İstinadlar

1. https://www.kyppi.fi/palveluikkuna/rapea/read/asp/r_kohde_det.aspx?KOHDE_ID=200227 (https://www.kyppi.fi/palveluikkuna/rapea/read/asp/r_kohde_det.aspx?KOHDE_ID=200227)
2. Finnish Museum Statistics
3. Uusimaa Museum Guide
4. Gimeno-Martinez, Javier; Verlinden, Jasmijn (2010). "From Museum of Decorative Arts to Design Museum: The Case of the Design museum Gent". *Design and Culture*. 2 (3).

Mənbə — "https://az.wikipedia.org/w/index.php?title=Helsinki_Dizayn_Muzeyi&oldid=4522815"

Bu səhifə sonuncu dəfə 16 dekabr 2018 tarixində, saat 12:10-də redaktə edilib.

Mətn Creative Commons Attribution-ShareAlike lisenziyası altındadır, bəzi hallarda əlavə şərtlər tətbiq oluna bilər. Ətraflı məlumat üçün istifadə şərtlərinə baxın.